# MÜASİR KİTABXANALARDA ELEKTRON KATALOQ SİSTEMLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Aydan Nazim qızı Şahmarova***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*AzİI e Kitab evi, kitabxanaçı*
*Azadlıq pros. 20*
*aydanshah@mail.ru*

***Açar sözlər:*** *elektron kitabxana, kompüter texnikası, müasir kitabxana texnologiyaları, kitabxana prosesləri, elektron resurslar*

***Ключевые слова:*** *электронная библиотека, компьютерные технологии, современные библиотечные технологии, библиотечные процессы, электронные ресурсы*

***Keywords:*** *electronic library, computer technologies, modern library technologies, library processes, electronic resources*

**Xülasə:** Məqalədə müasir kitabxanalarda istifadə olunan texnologiyalar və onlardan istifadə məsələlərinin əsas istiqamətləri ətraflı şəkildə təhlil olunur. Kitabxana işinin təşkilində yeni nəsil texnologiyaların tətbiqinin zəruriliyi əsaslandırılır.

**Резюме:** В статье подробно анализируются технологии, используемые в современных библиотеках, и основные направления их использования. Обоснована необходимость применения технологий нового поколения в организации библиотечной работы.

**Summary:** The article analyzes in detail the technologies used in modern libraries and the main directions of their use. The necessity of using new generation technologies in organizing library work is substantiated.

Müasir dövrdə kitabxanalar ənənəvi, təcrübədə öz təsdiqini tapmış xidmətlərlə yanaşı, informasiya və kommunikasiya texnologiyalarına (İKT) əsaslanan xidmətlər də təqdim etməklə biliklər iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilirlər.

İKT-nin kitabxana işi sahəsinə tətbiqi nəticəsində ortaya bir çox yeni tələblər çıxır. Oxuculara xidmətin səviyyəsini yüksəltməklə bilavasitə kitabxana-informasiya xidmətində elektron kataloq informasiyanın daha operativ çeşidlənmə, toplanma və ötürülməsinə təkan verir. Beləliklə, əsas məqsədə - oxucuya real vaxt kəsiyində ən münasib xidməti, məlumatı, sənəd kütləsini təklif etmək vəzifəsinə daha asan yolla nail olmaq üçün elektron kataloqun yaradılması zərurəti meydana gəlir [1].

Kitabxanaların xidmət sisteminin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə elektron kataloqların yaradılmasına ehtiyac duyulur. Çünki hazırki informasiya çoxluğunda oxucuların istədikləri məlumatı əldə edə bilmələri üçün elektron kataloqun yaradılmasının əhəmiyyəti çox böyükdür. Hal-hazırda Azərbaycanda kitabxanaların modernləşməsi prosesi gedir və hər bir kitabxana özünün elektron kataloqunu yaratmağa çalışır. Ancaq bu ağır və maliyyə vəsaiti tələb edən bir prosesdir [4].

Müasir innovativ texnologiyaların tətbiqi nəticəsində kitabxanalarda elektron kataloqlar, resurslar və verilənlər bazası (biblioqrafik, tammətnli) yaradılır. Elektron kitabxana miqyasına görə lokal və ya qlobal (İnternet şəbəkəsində yaradılan) xarakterli ola bilər. Yaradılma üsuluna görə kitabxanaların üç tipini fərqləndirmək olar:

1. Elektron resursların elektron kitabxana fondunu saxlayanlar tərəfindən yaradılanlar;
2. Artıq mövcud olan elektron resurslardan təşkil edilənlər;
3. Birinci və ikinci tip resursların birləşməsindən ibarət olanlar.

Elektron resursların istehsalı, yayılması və istifadəsi kitabxanalarda bir sıra yeni hüquq münasibətlərinin meydana gəlməsinə səbəb olub. Resursların tərkibinə görə elektron kitabxanaları iki qru-

pa bölmək olar: monoresurslu və multiresurslu. Yəni kitabxananın resursları yalnız mətnlərdən də ibarət ola bilər, müxtəlif multimedia resurslarından da. Elektron resurs dedikdə, informasiya sistemlərində (elektron kitabxanalarda) yerləşdirilən elektron sənədlər başa düşülür. Elektron resurslar kitabxanaların öz fondlarını komplektləşdirmələrində mühüm əhəmiyyətə malikdir. Elektron resurslar müxtəlif meyarlar əsasında təsnifatlandırıla bilər. Lakin praktikada əsas meyar kimi resursun ənənəvi (çap) versiyasının olub-olmaması götürülür. Bu göstəricidən asılı olaraq elektron kitab iki növə bölünür [3]:

1. Çap nəşrinin elektron versiyası;
2. Yalnız elektron (rəqəmsal) formada olan resurslar.

Bununla yanaşı, çap versiyasını çap edən naşir həmin resursa dair müəyyən hüquqlara malik olur. Müvafiq olaraq, daha əvvəl çap olunmuş nəşri tamamilə və ya qismən təkrar etməklə elektron resursun yaradılmasını təşkil edən şəxs yalnız əsərin müəllifindən deyil, həm də naşirdən icazə almalıdır. Elektron resurslar həmçinin informasiyanın təbiətinə (mətn, audio, video, qrafik və s.), istiqamətləndiyi auditoriyaya, yayılma texnologiyasına, istifadəçi ilə qarşılıqlı əlaqəsinə, dövriliyinə, strukturuna, sahibinin hüquqi statusuna və s. görə təsnifatlandırıla bilər. Elektron resursların yuxarıda qeyd edilən növlərini nəzərə almaqla, ümumiləşdirilmiş təsnifatına aşağıdakıları aid etmək olar [2]:

- elektron jurnallar;
- elektron kitablar;
- referativ-biblioqrafik verilənlər bazaları;
- sorğu xarakterli verilənlər bazaları (bioqrafiyalar, lüğətlər, ensiklopediyalar və s.);
- statistik informasiyaya aid verilənlər bazaları;
- elektron təsvirlər;
- elektron audio-vizual resurslar;
- kompüter proqramları.

Müasir informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə elektron kataloqa əlyetərliyin artırılması üçün ən son texnologiyalardan istifadə etmək zəruridir. Ənənəvi kitabxanalarda oxucu ədəbiyyatı sifariş etmək üçün kataloq qarşısında xeyli vaxt sərf edir. Oxumaq istədiyi kitabın sifarişini vermək üçün isə kitabın məlumatlarını əllə tələbnaməyə yazırlar. Ənənəvi kataloq ədəbiyyatın hərəkətini əks etdirmədiyindən, sifariş olunan ədəbiyyatın hər hansı bir nüsxəsi kitabxanada olmadıqda sərf olunan vaxtın hədər getdiyi aşkar olur. "MEK Kitabxana İdarəetmə Sistemi"ndə hazırda istifadəyə verilmiş Elektron kataloq modulu isə oxuculara lazım olan ədəbiyyatın qısa müddətdə kitabxanada olması haqqında dəqiq məlumat əldə etməsini təmin edir. Burada tələbnamələrin istifadəçilərin sifarişlərinə əsasən avtomatik şəkildə proqram tərəfindən çap olunur. İstifadə olunan Elektron kataloq ədəbiyyat fondu haqqında ənənəvi kataloqlardan daha dolğun və geniş həcmli məlumat saxladığından çoxsəviyyəli axtarış imkanları təklif edir. Elektron kataloq texnologiyasının vacibliyini nəzərə alaraq qeyd etmək olar ki, günümüzün ən aktual problemlərindən biri elektron kataloq sistemlərinin təhlükəsizliyi məsələləridir. Elektron kataloq sisteminin təhlükəsizliyi informasiya təhlükəsizliyi məsələsinin tərkib hissəsi kimi çıxış edir. İnternet məkanında günbəgün artan kibertəhlükə, kibercinayət halları digər İnternet resursları kimi, kitabxanaların da vebkataloquna ciddi təhdid hesab olunur. Bu kimi hallara qarşı önləyici tədbirlər görülməli, kitabxananın elektron kataloqu sanksiyalaşdırılmamış hücumlardan qorunmalıdır [3].

Elektron kataloq həmçinin kataloqlaşdırıcı və biblioqraf əməyini avtomatlaşdırmaqla kitabxananın kadr və maliyyə ehtiyatlarından səmərəli istifadəsini təmin edir. Bu isə keçid dövrünü yaşayan Azərbaycan kitabxanaları üçün önəmli amillərdən biridir. Digər tərəfdən elektron kataloq kitabxanaçı kadrlardan müasir kitabxana-informasiya texnologiyalarını bilməyi tələb etdiyindən, kitabxanaçıların intellektual səviyyələrinin yüksəldilməsi üçün stimul yaradır.Elektron kataloqun ənənəvi kitabxana kataloqundan əsas üstünlüklərindən biri oxucu sorğusunun daha dolğun yerinə yetirilməsidir. Bu gün

rəqəmli texnologiyanın inkişafı kağız üzərindəki informasiyanın elektron formaya çevrilməsinə imkan verdiyindən elektron kataloqdan istifadə edən oxucu Online olaraq öz tələbatına uyğun ədəbiyyatın kitabxanada mövcudluğu haqqında məlumat əldə edir.

Elektron kataloqlar dünya kitabxanalarının internet vasitəsilə yayılan əsas informasiya mənbəyidir. Elektron kataloq olmadan kitabxanada kompüter əsasında tətbiq edilən bütün işlərin xarakteri dar məna daşıyacaqdır. Elektron kataloqa malik olan kitabxana öz fondunu daha geniş şəkildə əks etdirə bilər, geniş oxucu-tələbatçıların nəzərinə çatdıra bilər, bütünlükdə kitabxana sisteminin ümumi səviyyəsinə və keyfiyyətinə fəal təsir göstərə bilər. Qeyd etmək yerinə düşər ki, elektron kataloqları dünya miqyasında təkcə bir kitabxana daxilində axtarışı məhdudlaşdırmır. Oxucu-tələbatçı eyni zamanda ona lazım olan informasiyanın axtarışını digər kitabxanalarla əlaqəli şəkildə apara bilər, istədiyi materialı əldə edər, mütaliə dolğunluğu yaradar [5].

**Ədəbiyyat**


1.*Xələfov, A.A.* Kitabxanaların kompüterləşdirilməsinin əsasları [Mətn]: dərslik /A.Xələfov, A.Qurbanov.- Bakı, 2007.- 199 s.

2.*Rüstəmov Ə.* Avtomatlaşdırılmış kitabxana informasiya sistemləri və şəbəkələri: monoqrafiya / Ə.Rüstəmov, N.Mustafayeva.- Bakı, 2007.

3.*Rüstəmov Ə.* Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması / Ə.Rüstəmov, N.Mustafayeva // Kitabxanaşünaslıq və biblioqrafiya : elmi, nəzəri, metodik və təcrübi jurnal.- 2007.- № 2.- S.15-27.

4.*Xələfov, A.A.* Kitabxana və cəmiyyət. Monoqrafiya, Bakı "Azərnəşr",2011. – 348 s.

5. *Xələfov, A.A., Qurbanov A.İ.* Kitabxanaların kompüterləşməsinin əsasları: Dərslik. Bakı: BUN, 2006. – 205 s.